**Seyfəddin Sabir oğlu Səməndərov**
**i.e.d.,dos. AMEA İqtisadiyyat İnstitutu**
**UOT:338.1;/006; JEL:Il2.**

# Ömər Faiq Nemanzadə yaradıcılığında ictimai-iqtisadi məsələlər

***Xülasə***

*Məqalədə XX əsrin əvvəllərində Azərbaycan publisistikasının inkişafında çox böyük rolu olan Ömər Faiq Nemanzadənin ictimai-iqtisadi fikirləri araşdırılır. Ədibin yaradıcılığı araşdırılarkən görünür ki, o xalqın mövhümat və xürafatdan ayılmasını, xalqın düşüncəsinin, ictimai fikrin elm, maarif və rasioanl düşüncələrə əsaslanan fikirlər əsasında inkişaf etdirilməsinin tərəfdarı idi. Ədibin yaradıcılığında milli özünü dərk, milli kimlik, milli birlik məsələlərinə geniş yer verilmiş, cəmiyyətin geriliyi səbəbləri ilə bağlı mühakimələr irəli sürülmüşdür.*

***Açar sözlər**: ədib, maarifçi-demokrat, milli birlik, milli özünü dərk , ictimai şüur*

## Giriş

Müasir dövrdə fikir tarixinin aktual məsələlərinin araşdırılması ilə məşğul olan tədqiqatçılar XX əsrin əvvəllərində Azərbaycanda fəaliyyət göstərən ictimai (sosial-siyasi) fikir cərəyanlarını aşağıdakı kimi qruplaşdırırlar. Bunlar aşağıdakılardır: maarifçi demokratlar, islamçılar; türkçülər; qərbçilər; islamçılığı, türkçülüyü və qərbçiliyi birləşdirib müasirləşmək və demokratik yolla cəmiyyətin inkişaf etdirilməsi ideyasının tərəfdarları; marksizm-leninizmi təbliğ edənlər [9]. Belə bir zəmində qeyd edilməsi yerinə düşərdi ki, Azərbaycan ictimai fikri üçün XX əsrin əvvəlləri oyanışın başlanması dövrü kimi də xarakterizə olunur. Bütün ziyalılar, şair və yazıçılar cəmiyyətdə vüsətlənən ictimai–siyasi proseslərin fəal iştirakçılarına çevrilmişdilər. Bir tərəfdən çarızmın artan zülmü, digər tərəfdən xalq arasında hökm sürən mövhumat azərbaycan ziyalısını açıq düşüncə və müakimələrə, milli inkişaf və milli tərəqqi yolları haqqında düşünməyə sövq edirdi. Ziyalılar maddi mənfəəti bir kənara buraxaraq, gerilik və ədalətsizliklərin əsil səbəbləri üzərində düşünməyə başlamışdılar. Göründüyü kimi, XX əsrin əvvəlləri Azərbaycan ictimai fikir tarixi mürəkkəb, ziddiyyətli, fikir müxtəlifliyinin höküm sürdüyü bir dövr kimi xarakterizə edilə bilər. Bu dövrdə Azərbaycan ictimai fikir tarixinin inkişafında, xalqın maariflənməsində, siyasi savadlanmasında ziyalılar məqsədyönlü şəkildə fəaliyyət göstərmişlər. Demək olar ki, bütün Azərbaycan ziyalıları mətbuatla sıx təmaslar qurulması istiqamətində çalışmışlar. Maarifçilər, Azərbaycan ziyalıları çarizmin qadağalarına, erməni iş admlarının səylərinə baxmayaraq ana dilində qəzet və jurnalların dərc olunmasına nail ola bilmişdilər [6, №1, s. 145, 2016]. Azərbaycan ictimai fikrinin inkişafında misilsiz xidmətlər göstərən ziyalılarımızdan biri kimi Ömər Faiq Nemanzadə göstərilə bilər. Ömər Faiq Nemanzadə yaradıcılığında milli birlik; türk xalqlarının birliyi məsələsi qaldırılır. Xalq və ziyalılar, cəmiyyətin imkanlı təbəqələri və daha aşağı sosial təbəqələr arasında səddlərin aradan qaldırılaraq ümumi anlaşmaya nail olunması məsələsi xüsusi olaraq vurğulanırdı.

## Ömər Faiq Nemanzadənin həyatı

Ömər Faiq 1872-ci ildə dekabr ayının 24-də Tflis quberniyasının Axalsız qəzasının Azgur kəndində kəndli ailəsində anadan olmuşdur. Birt neçə il mollaxanda oxumuş, sonra yenicə açılmış rus məktəbinə daxil olmuşdur. 1882-ci ildə İstanbula getmiş, “Fateh” məktəbində təhsilini davam etdirmişdir. Təbiət elmlərinə maraq Ömər Faiqin “Dar–us Şəfəq” məktəbinə daxil olmasına səbəb olmuşdur. 1891-ci ildə həmin məktəbi bitirdikdən sonra Qalata poçt və teleqraf idarəsində çalışmağa başlamışdır. Burada qəzet və jurnallar vasitəsi ilə dünyada, xüsusi ilə də Avropada baş verən hadisələri izləyə bilmişdir. Ömər Faiq 1900-cu ildə Şamaxıya gəlmişdir. O, burada milli məktəbin təşkil edilməsinə yaxından yardım etmiş və tarix, coğrafiya, hesab və türk dilindən dərs demişdir. Daha sonra Gəncə şəhərində müəllimlik edir. 1894-cü ildə Şəkiyə müəllimliyə dəvət olunur. 1895-ci ildə onun təşəbbüsü ilə Cənubi Qafqazda ilk türk məktəbi fəaliyyətə başlayır [3, s. 202]. Ömər Faiq 1903-cü ilin mart ayının 30-da nəşrə başlayan "Şərqi-rus" qəzetində Məhəmməd ağa Şahtaxtlı, Cəlil Məmmədquluzadə, Səməd ağa Qayıbov, Üzeyir Hacıbəyov, Rəşid İsmayılov, Əsəd Babayev, Yusif Əfəndizadə ilə bir yerdə çalışır. Qeyd etmək lazımdır ki, “Şərqi-rus “ qəzeti Qafqazda ilk dəfə olaraq nəşr olunan siyasi və ictimai gündəlik türk qəzeti olur. Daha sonra 1906-cı ildə ilk dəfə "Molla

Nəsrəddin" jurnalı nəşr edilir. Jurnalın təsis edilməsində və onun nəşrində Cəlil Məmmədquluzadə və Ömər Faiqin rolu və xidmətləri böyükdür. Ömər Faiq Nemanzadə 1920-ci ildə Gəncə Ziraət (kənd təsərrüfatı) Texnikumunun direktoru işləmiş, 1920-1921-ci illərdə "Zəhmətkeşlərin gözü" jurnalının redaktoru, sonra "Yeni fikir" redaksiya heyətinin üzvü seçilmiş, eyni zamanda Gürcüstanda müsəlman işləri üzrə komitənin sədri təyin edilmişdir. Ömər Faiq 1923-cü ildən Azərbaycana gəlmiş və 1924-cü ildən Azərbaycan SSR Xalq Maarif Komissarlığında çalışmağa başlamışdır. Azərbaycanda xalq maarifinin yenidən qurulmasında, yeni dərsliklərin və dərs vəsaitlərinin yaradılmasında fəal iştirak etmişdir. 1927-ci ildə Ömər Faiqin xəstəliyi və əmək fəaliyyəti nəzərə alınaraq ona təqaüd kəsilmişdir. 1927-ci ildən 1930-cu ilə kimi hər il nəşr edilən "Üçüncü il" dərsliyin əsas müəlliflərindən biri idi. Ömər Faiq 1937-ci ilin yayında Axalsıxdə öz ata yurdunda dincələrkən iyunun 16-da rayon prokuroru Odabaşyanın sərəncamı ilə həbs edilir, uç ay sonra oktyabrın 16-da Grcünstan SSR Xalq Daxili İşlər Komissarlığı nəzdindəki üçlüyün qərarı ilə güllələnir. 1958-ci ildə Gürcüstan SSR Ali məhkəməsi ona bəraət vermişdir [8, s.18].

**Məqalələr və yazılar**

Azərbaycanda müəllim, publisist, maarifçi ictimai xadim kimi tanınan Ömər Faiq Nemanzadə eyni zamanda jurnalist kimi də fəaliyyət göstətmişdir [4, s.207, №28, 2017]. Ömər Faiq Nemanzadə "Şərqi Rus", "Molla Nəzrəddin", "Tərcüman", "İrşad", "Tərəqqi", "İqbal", "Yeni İqbal", "Açıq Söz" mətbuat orqanlarında silsilə məalələr dərc etdirmişdir. Ö.F.Memanzadə 1915-ci ilin oktyabrından etibarən "Açıq Söz" əzetinin redaksiyası ilə six əlaqələr saxlamıdır [7, s. 214, № 3, 2015]. Ədibin əsərlərini, məqlələrini araşdırarkən ilk olaraq diqqəti cəlb edən məsələ Ömər Faiqin XX əsrin əvvəllərində milli ictimai fikrin və ictimai marağın elm və maarifə kifayət qədər istiqamətlənməməsidən bərk narahatçılığın hiss olunması idi. Ədib- publisist 1900-cu il yanvarın 7-də "Tərcuman" qəzetində "Axalsixdan" başlığı ilə dərc edilən məqalədə yazırdı: "Cənab mühərirr! Camatımız çox rahatdır! Nə yeni məktəbimiz var, nə də əski! Camaatımız mərhəmətlidir. Sənət məktəbinin bir xeyli xərcini çəkib erməni, yəhudi və gürcü ətfalını məccani oxutdurur. Cammatımız qənaətlidir. Öküz və eşşək işlərindən qeyrilərinə baxmazlar. Bu səbəblə uyedzdlərimizdə bir müsəlman dəmirçisi, yemənçisi bulunmaz. Amma kiçik bir köydə, məsələn Azqurda müəslmanların parası ilə keçinən beş böyük meyxana, altı qəhvəxana vardır . Daha sonra fikirini davam etdirən Ömər Faiq yazırdı ki, maarifimiz də o dərəcədədir ki, dörd saatlıq yolu olan Qori darülmüəllimində bizdən ancaq bir müsəlman var [8, s.21]. Ömər Faiq 1903-cü ilin aprel ayında "Şərqi Rus" qəzetində "Dərdimiz və dərmanımız" başlığığı ilə dərc edilən silsilə məqalələrində də milli ictimai fikrin, milli maraq və düşüncənin maairflənməyə yönəlməsinin vacibliyi məsələsini xüsusi olaraq vurğulayırdı. Ədib-publisist yazırdı ki, "İlahi, bizim millətimizin mərifət baharı nə vaxt gələcək.? Elm çiçəklərimiz nə zaman açılacaq? Həmişə böylə gözübağlı, dili lalamı qalacağıq?. Ömər Faiq digər millətlərlə müqayisələr apararaq yazırdı ki, Onlar hünərli, rahat, asudə, biz isə əksəriyyətdə çoban yuxulayan həqir, fəqir, cahil, qafil qalmışız[8, s.27]. Ömət Faiq fikrini davam etdirərək yazırdı ki, indiyə qədər min dürlü təcrübələrlə isbat edilmiş bir həqiqətdir ki, hər millət mərifət ilə yaşar, cəhalət ilə yox olar [8, s.28]. Ömər Faiq 1904-cü ildə may ayının 5-də "Şərqi Rus" qəzetində "Nə üçün haqqımızı istəmiriz?" başlığı ilə dərc edilən məqalədə də millətin elmsiz, maarifsiz, səfalət içində yaşaması məsələsini gündəmə gətirilmişdir. Ədib-publisist yazırdı ki, "zəmanəmizdə bizim kimi boş xəyal keçirən, fürsətdən istifadə etməyən heç bir millət olmasa gərəkdir[8, s.32]. Daha sonra fikirini davam etdirərək Ömər Faiq millətin gözümüzün önündə səfalət, zillət, həqarət, uçruma doğru sürükləndiyindən marahatçılıq hiss etdiyini bildirmişdir [8, s.32]. Ədib publisist zamanla ayaqlaşmanın, zamanının tələblərinə uyğunlaşmanın vacibliyini dilə gətirərək 1904-cü ilin avqust-sentyabr aylarında "Şərqi Rus qəzetində" dərc edilən "Biz də vaxta görə çalışaq "adlı məqalədə yazırdı ki, "Zamanın təqazasına uymayan , ümumun getdiyi nicat yolu ilə getməyən bir kişi və ya millət dünya, məişət və həyatca başqalarından geri qalar; geri qaldıca qonşularının mərifətli olduğu nisbətdə qvvətli olan ayaqlarının altında əzilib qalar, bəlkədə bir vaxt yox olar gedər [8, s. 55]. Daha sonra Ömər Faiq fikrini davam etdirərək yazırdı ki, Görürüz ki, bir ovuc millətlər zəmanyə görə, himmətləri sayəsində milyonlarca cahil, qafil insanları özlərinə maddi, mənəvi əsir edirlər [8, s. 60].

Ədib-publisist 1906-ci ilin aprel ayında " Nə vaxta qədər" başlığı ilə "İrşad" qəzetində dərc edilən məqalədə də da millətin öz inkişafında digər qabaqacıl millətlərdən geridə qalması səbəbləri üzərində düşünərək yazırdı ki, nə vaxta kimi siyaət və ticarətdə -özgələrinə əsir olacağız? Neçün öz palitikamızı, milli xeyrimizi qanmayırıq? [8, s.92]. Ömər Faiq bütün milləti birliyə çağıraraq 1906-cı ildə "İrşad" qəzetində dərc edilən (№282) "millərpərəslik zamanıdır" məqaləsində yazırdı: Ey füqərayi-kasıbanın alın tərilə dövlətli olanlar, ey millət səbəbilə sahibi mənsəb və nüfuz alanlar, ey bu millətə pişa və ağa olmaq istəyənlər, ey ürəklərindəki bir cüzi mərhəmət və insafı olanlar! Zaman bu zamandır, zaman insanlıq–müsəlmanlıq zamanıdır, riyakar və xülusların, mərhəmətli və mərhəmətsizlərin, dindar ilə dinsizlərin, mələk ilə şeytanın bilincək zamanıdır. Ədib zamanın tələb və çağırışıarına cavab olaraq yazırdı ki, gəliniz biz də əcdadımızın həqiqi nəvələri olduğunu bildirib türklüyümüzü, müsəlmanlığımızı bildirib isbat edək [8,133-134]. Ömər Faiq hər kəsi birliyə və bir olmağa çağırmaqla yanaşı digər millətlərin nisbətən daha yüksək mənsəb sahibi olanların davranışlarına da diqqəti yönəldirdi. Qeyd edilən fikir 1906-cı ildə dekabr ayında "İrşad" qəzetində Ömər faiq "Çinovniklərimiz" məqaləsində öz əksini tapmışdır. Ədib yazırdı : "dünada adi və heyvanı bir qayda vardır ki, hər bir vücud, hər şəxs, hər firqə və millətin öz xeyri ,öz səlaməti üçün çalımasıdır. Çox az filosof və insana dost həkim vardır ki, məhz ümumun, ümumi növü bəşərin nəfini nəzərdə tutub ona görə çalışsın. Dünyanın ən mədəni yerlərindən ən vəhşi yerlərinə baxınız : cümləsi ortada şiddətlə axan "mənfəət" selinə uyub getməkdədir [8,137]. Kimi səy edir ki, öz millətinin uşaqları təhsili-elm edib öz millətinə xeyir versin. Kimi qeyrət edir ki, öz vətəninin , öz yerinin mali rəvac tapıb kəsbi-qüvvət etsin. Kimi iqdam edir ki, öz hökumətinə cani süparanə xidmət edib məqamını ucaltsın. Xülasə hər kəs yaxşı-yaman çalışır ki, özünə, öz millətinə, öz vətəninə mənfəəti dəysin [8, 137-138]. Daha sonra Ömər Faiq fikrini davam etdirərək yazırdı ki, bəzi müsəlman çinovnikləri : bu bədbaxtlar fədakaranə, sadiqanə xidmətlərinin əksinə hər günə ümiddən, xahişdən, hər növ mənfəətdən məhrumdurlar [8, s.138]. erməni incinerləri, doktorları qulluqçuları millətlərinə cürbəcür xeyirxahlıq, köməklik edirlər...müsəlman çinovnikləri millətə kömək etməkdən, cammat işinə qrışmaqdan o qədər ehtiyat edirlər ki, quya hökümət bunları tutub Sibirə göndərəcəkdir [8, s.139].

Ömər Faiq Nemanzadə yazırdı ki, hər tərəfə baxsan müsəlmanların içində fəqirlik, nadanlıq, bacarıqsızlıq , məhkumluq son bir mərtəbəyə varıb [1, s.42]. 1905-ci ildən başlayaraq mətbuatda, xüsusi ilə də "Həyat" və "Molla Nəsrəddin" jurnallarında "Bizə hansı elmlər lazımdır?" silsilə məqalələr dərc olunmağa başladı. Sözügedən sərlövhə ilə dərc edilən materriallarda məktəblərin tədris proqramları, fizika, kimya, riyaziyyat, həndəsə, tibb, hesab kimi keçilməsi məqsədəuyğun hesab edilən fənnlər haqqında yazılar verilirdi. Eyni zamanda dini mövzuların tədrisinin zəruriliyi barədə qəzetlərdə məlumatlar dərc edilirdi [2, s. 68, №1, 2010]. Belə məqalə və əsərlərin müəlliflərindən biri kimi Ömər Faiq Nemanzadə diqqəti cəlb edir. Ömər Faiq 1907-ci ildə Tiflisdə çap olunmuş "Bizə hansı elmlər lazımdır?" kitabında yazırdı: "Zalım o deyil ki, özgələrə əziyyət verir, bəlkə zalımlığın ən böyüyü məzlumluğu qəbul etməkdir; böyüklərə heyvanca itaət edib zülm və istibdadın artmağına səbəb olmaqdır [8, s.151]. Daha sonra milli tərəqqi, milli ictimai şüur və ictimai fikrin inkişafına xidmət edən üsul və vasitələr üzərində düşünən ədib-publisist yazırdı ki, millətlərin dərəceyi tərəqqiləri məhz bir şeylə ölçülür ki, o da ancaq mətbuatlarıdır. Hansı məmləkətdə çoxlu nəfli, davamlı və nüfuzlu mətbuat varsa ən mütərəqqi və mədəni məmləkət orasıdır. Mərbuatı olmayan millətin mövcudiyyəti-istiqbalalı yoxdur. Mətbuat, inqilab, hüriyyət, ədalət bunların cümləsi bir-birindən edadına möhtac yoldaşlardır.[ 8, s.157-158]. Ömər Faiq 1909-cu ildə fevral-mart aylarında "Tərəqqi" qəzetində "Yazımız, dilimiz, ikinci ilimiz" başlığı ilə dərc edilən silsilə məqlələrdə milli ictimai şüur və ictimai fikrin inkişafına xidmət edən üsul və vasitələrlə bağlı dəyərləndirmələr edərək yazırdı ki, dünyada heç bir millət özgələrin şərt etdiyi qaydaları nə cürə ki var, eləcə qəbul edib öz dilinə doldurmuşdur. Ancaq dünyada bircə biz hamıdan ağıllı, qanacaqlı çıxıb özgələrin başlarındakı sarıqları ilə bərabər ayaqlarının tozlarını da qəbul edib gözlərimizə sürmə etmişik [8]. Ömər Faiq insan həyatını əbədi mübarizə kimi təsvir edərək yazırdı ki, həyat həmişəlik bir davadır. Bu davada hər kəsin düşməni birdir: zəhmət və məşəqqət-əski təbirlərcə çərxi-fələk. Kim zəhmət və məşəqətə tab edib, tutduğu işdə səbat göstərirsə, o çərxi fələyin qolunu bükmüş, düşmənini həlak etmiş olur.

Yaşamaq üçün çalışmaq, vuruşmaq keyfiyyəti yalnız əql və elmin bu gün öyrətdiyi yol deyil, bəlkə o xaliqin məxluquna bəxş etdiyi təbii bir xasiyyət əzəli və əbədi bir qanundur [8, s.193]. Görndüyü kimi, yaşamaq uğrunda çalışmaq və mübarizə aparmağı əzəli-əbədi qanun adlandıran Ömər Faiq milli birlik və milli həmrəyliyi əsas məsələlərdən biri kimi bir daha xüsusi olaraq vurğulmışdır. Nümunə kimi ədib–mütəfəkkirin 1915-ci ilin aprel ayında "İqbal qəzetinə yazdığı məqlədəki səsləndirdiyi fikirlər diqqəti cəlb edir. O, yazırdı ki, öz köməyimiz az da olsa çlışmalıyız. Bu vasitə ilə həm bir zad yığarıq, həm də imdiyə qədər ancaq özünü düşünməyi öyrənən millətimiz əfradına köməkləşməni öyrətmiş oluruq [8, s.197]. Bənzər fikirlər Ömər Faiqin 1915-ci ildə iyul ayında "Yeni iqbal" qəzetində dərc edilən məqalədə də səslənmişdir. Ədib-publisist yazırdı ki, İstiqlal arzusu bütün məhəbbətlərdən güclüsü ola! Bunlar insanı idarə edən güclər oldumu, daha irəlisini düşünmıyiniz: istənilərn hər şey bu sahədə yapıla biləcəkdir [8, s.202]. Daha sonra Ömər Faiqin 1915-ci ilin noyabr-dekabr aylarında "Açıq söz " qəzetində dərc edilən silsilə məqalələri diqqəti cəlb edir. Ədib-publisist yazırdı ki, hər millətin mətbuatı o millətin güzgüsüdür ki, oraya baxdıqca insan üstündə ləkələri, çirkinlikləri-qüsürları qaldırmağa və özünü daha təmiz, daha gözəl etməyə çalışır. Halbuki bizim öz güzgümüzə baxdıqca orada bizdən artıq özgələri və özgələrin fikir və işlərini görürüz [8, s. 213]. Maarif məsələsi bizim üçün ölüm dirim məsələsidir [8, s.219]. Ömər Faiq milli varlığın, milli kimliyin qorunnması və inkişaf etdirilməsi məsələlərinə dəfələrlə diqqət yetirərək öz fikirlərini irəli sürmüşdür. Deyilən fikri 1917-ci ilin may ayında Ömər Faiqin "Qardaş köməyi" məcmuəsində səsləndirdiyi sözlər sübut edir. Ədib-publisist yazırdı ki, Zamanamızda , yəni din və ədubiyyətdən, cins və millətlərin hökm sürdüyü böylə bir çağda insan öz soy və millətini tanımamaq , daha doğrusu özünü bilməmək ən böyük günahlardan , silinməz ləkələrdən biridir [8, s. 233]. Ədib fikrini davam etdirərək yazırdı ki, bu ləkə yaman ləkədir. Bu ləkə surətində oyla yılancıq (qanqrena) yarasıdır ki, millətimizin vücudunu, türklük varlığını yavaş-yavaş gəmirir, yox edir. Bu gün həm də kiçik millətlərin, xüsusilə məhkum millətlərin öz varlıqlarını, öz hüquqlarını saxlamaq iddiası ilə bu qədər qan tökülən bir vaxtda bizim özümüzü tanımamazlıq bəlası, dərin düşünülürsə, qara yaradan da, taun çibanından da daha acılı və daha zəhərlidir. Hər kəs öz millətini tanıyıb onun yolunda ağladığı, onun uğrunda gözünü kor etdiyi böylə bir həngamədə biz öz millətimizi sevmək deyil, onun quru adını da bilməyib ortada şaşıb qalmışız. [5, s. 37]. Deyilən fikri ədibin dili kəsilməyən millətin vücudu kəsilməz, ədəbiyyatı yaşayan millət heç vaxt öləməz. .. Dünyada bədbəxt o millətdir ki, özgə millətin silahından ziyada dil və ədəbiyyatına əsir olaraq yaşamaqdadır [8, s .246] kimi sözləri də sübut edir. Daha sonra tədqiqatçıların ədibin baxışlarının dini-idealist mövqelərdən materialist-ateist mövqelərə qədər təkamül yolu keçməsi, dövrünün ictimai-siyasi və ideoloji problemlərinə toxunarkən fikirlərini mücərrəd kateqoriyalarla deyil, kütlə və oxucular üçün anlaşılan, fəlsəfi məna daşıyan sözlərlə ifadə etməsi fikri ilərazılaşmaq olar [4, s. 211, №28, 2017]. Ömər Faiq inkişaf və tərəqqinin zor yolu ilə deyil, tədricən, təkamül yolu ilə nail olunmsının mümkünlüyünə diqqəti çəkir, bir daha qeyd etmək lazımdır ki, milli birlik, ictimai birliyə nail olunmasının vacibliyini xüsusi olaraq qeyd edirdi. Ədib-publisist 1919-cu ilin iyununda Azərbaycan qəzetində dərc edilən "İşlərimizdə hərc mərclik "məqaləsində yazırdı ki, Təbiətə zor etmək, tərəqqini sürətlə etmək səyi ilə kamala çatmaq olmaz . Lakin burası daha ziyadə doğrudur ki, hər tərəqqini, hər kamalı yalnız təbiət əlinə buraxmaq daha təbii Allahı tanımamaqdır.

**Nəticə**

Azərbaycan maarifçiliyi geniş ictimai hərəkat kimi XX əsrin əvvəllərində yeni xarakter almağa başlayır. Həm feodalizmə, həm də burjuaziyaya geniş demokratik təbəqələrin ictimai etirazlarını əks elətdirən təlim kimi yeni xüsusiyyətlər kəsb edən Azərbaycan maarifçiliyi XX əsrin əvvəllərindən siyasiləşərək, çar hökumətinin müstəmləkə zülmünə qarşı milli azadlıq hərəkatının ideologiyasına çevrilir [10]. Ö.F.Nemanzadə XX əsr maarifçi demoratik hərəktın görkəmli nümayəndələrindən biri kimi əsərlərində toxunduğu əsas ictimai-iqtisadi məzmunlu məsələləri aşağıdakı kimi qruplaşdırmaq olar: millətin maarifləndirilməsi, milli dildə təhsil, mənəvi tərəqqi; milli ziyalıların formalaşması probleminin həllinin vacibliyi irəli sürülür; milli birlik; türk və müsəlman xalqlarının birliyinə nail olunması; sosial ədavətin, firqə və məzhəb münaqişlərinin aradan qaldırılması; mövcud vəziyyəti

düzgün dəyərləndirərək yaranmış imknlardan istifadə edilməsi; ana dili, əlifba və s. məsələlər ətrafında ciddi düşünrək milli tərəqqiyə gedən yolda bütün imkan və vasitələrdən istifadə olunması.

### Ədəbiyyat

1. Bəydilli C. (tərtib edən), Azərbaycan publisistikası antologiyası, Bakı, "Şərq-Qərb" 2007.
2. Buşəhri Mehdi "XXəsrin əvvəlində Azərbaycan realist ədəbiyyatı", Bakı Universistetinin Xəbərləri humanitar elmlər seriyası, 2010 №1, s. 67-73
3 Hüseynov Ş,A,, Mətbu irsimizdən səhifələr, Bakı, "Çənlibel" NPM, 2007, 484 s.
4 Hüseynov Y., Ömər Faiq Nemanzadənin fəlsəfi görüşləri , Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin Elmi Məcmuəsi 2017 №28, s. 207-213
5 Hüseynov Y.H., Molla Nəsrəddinçilərin Fəlsəfi dünyagörüşü və müasirlik" (Fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı), Bakı 2018.
6 Məmmədov N. , XX əsrin əvvəlləri Azərbaycan ədəbi ictimai fikrində "Şərqi Rus qəzetinin rolu", AMEA Ədəbiyyat İnstitunun Elmi Əsərləri 2016 №1, s. 145-152
7 Məmmədova R.Ə., "Ömər Faiq Nemanzadə Açıq söz qəzeti redaksiyasında", Bakı Universitetinin Xəbərləri, Humanitar seriyası, 2015№ 3, s. 214-219.
8 Nemanzadə Ömər Faiq, Seçilmiş əsərləri, Bakı "Şərq-Qərb" 2006, 352 səh
9 Rüstəmov Y. Siyasi-hüquqi təlimlər tarixi.Bakı: AUN, 2000, s.280
10 https://525.az/news/98367-xx-esrin-evvellerinde-azerbaycan-maarifciliyi

***Сейфаддин Сабир оглы Самандаров***

***Социально-экономические вопросы в творчестве Омара Фаига Неманзаде***

***Резюме***

*В статье рассматриваются социально-экономические взгляды видного азербайджанского публициста Омара Фаига Неманзаде. Рассматривая творчество автора, создается впечатление, что он был за то, чтобы пробудить народ от суеверий и развить народное мышление и общественное мнение на основе идей, основанных на науке, просвещении и рациональном мышлении. В работе автора широкое место отводится вопросам национального самосознания, национального единства, выдвигаются суждения о причинах отсталости общества.*

***Ключевые слова**: писатель, просветитель-демократ, национальное единство, национальное самосознание, общественное сознание*

***Seyfaddin Sabir oglu Samandarov***

***Socio-economic issues in the work of Omar Faig Nemanzade***

***Resume***

*The article examines the socio-economic views of prominent Azerbaijan publicist Omar Faig Nemanzade. Examining the author's work, it seems that he was in favor of awakening the people from superstition and developing the people's thinking and public opinion on the basis of ideas based on science, enlightenment and rational thought. In the author's work, the issues of national self-awareness, national identity, national unity are given a wide place, and judgments are put forward about the causes of the backwardness of the society.*

***Keywords:** writer, enlightener-democrat, national unity, national self-awareness, public consciousness*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 08.08.2022.***
***Çapa qəbul olunub: 15.08.2022.***